# “İkinci Qarabağ müharibəsi bizim şanlı tariximizdir”

***Erməni faşizmi Birinci Qarabağ müharibəsində, eləcə də işğal zamanı olduğu kimi, Vətən savaşında da iç üzünü nümayiş etdirdi, hansı mənəviyyata sahib olduğunu göstərdi. Ermənistan ordusu döyüşlər vaxtı istər hərb meydanında, istərsə də dinc sakinlərin məskunlaşdıqları yaşayış sahələrində–şəhər və kəndlərimizdə ən çirkin əməllərə əl atdı, mülki şəxslərə qarşı hərbi təxribatlar törətdi, qadağan olunmuş silahlardan istifadə etdi, ağ fosforlu bombaları, ballistik raketləri işə salmaqdan belə çəkinmədi. Nəticədə dinc əhali arasında neçə-neçə yaşlı və körpə də terror qurbanlarına çevrildi. Onlardan biri də 2019-cu il dekabrın 17-də Gəncə şəhərində doğulan Narin Teymur qızı Xalıqova idi. Birinci vitse-prezident Mehriban xanım Əliyeva sentyabrın 27-də - Anım Günündə Bakı şəhərində təşkil edilən yürüşdə həmin şəhid qızcığazın fotosu əks olunan plakatla irəliləyirdi. Ailənin tək övladı olan Narin 5 illik valideyn həsrətinin sonunda dünyaya göz açmışdı. Bu körpə 2020-ci il oktyabrın 17-də Ermənistan silahlı qüvvələrinin Gəncəni raket atəşinə tutması nəticəsində anası, həmçinin yaxın qohumları ilə birlikdə həlak oldu.***

***Biz Birinci Qarabağ müharibəsindəki məğlubiyyətlə barışmadıq, güc topladıq, bütün gücləri səfərbər etdik, ordumuzu gücləndirdik, ölkə iqtisadiyyatını gücləndirdik, ölkəmizin nüfuzunu qaldırdıq və öz tarixi missiyamızı şərəflə yerinə yetirdik. Biz düşməni torpaqlarımızdan qovduq və ədaləti, beynəlxalq hüququ bərpa etdik. Biz milli ləyaqətimizi bərpa etdik. Bu gün Azərbaycan xalqı müzəffər xalq kimi yaşayır. Bu gün Azərbaycan dövləti qalib dövlət kimi yaşayır. Biz bundan sonra müzəffər xalq və qalib dövlət kimi əbədi yaşayacağıq.***

***İlham ƏLİYEV***
***Azərbaycan Respublikasının Prezidenti***



Bu dəhşətli hadisə erməni cinayətkarlığının bariz ifadəsi idi. Ümumiyyətlə, Ermənistan silahlı qüvvələri tərəfindən istər işğal dövründə, istərsə də İkinci Qarabağ müharibəsində Azərbaycanın mülki əhalinin sıx məskunlaşdığı yaşayış məntəqələri, təhsil, sosial, mədəni və strateji əhəmiyyətli obyektlər ağır artilleriya qurğularından, xüsusi raket sistemlərindən və qadağan olunan silahlardan istifadə edilməklə intensiv şəkildə atəşə tutulub. Nəticədə mülki əhali arasında çoxsaylı ölüm və yaralanma halları baş verib, yaşayış məntəqələrinə, tarixi və mədəni abidələrə, inzibati binalara, ictimai və digər sosial obyektlərə ciddi ziyan dəyib. Qeyd etdiyimiz kimi, Ermənistanın hərbi təcavüzü nəticəsində ölən və yaralananlar arasında çox sayda uşaq və qadınlar da olub.

Gəncə, Bərdə və digər şəhərlərdə törətdiyi terror aktları isə Ermənistanın faşist mahiyyətini bir daha nümayiş etdirdi. Bu vandalizm, barbarlıq aciz vəziyyətə düşən Ermənistanın cəbhədəki məğlubiyyətinin heyfini dinc insanlardan alması məqsədi daşıyırdı. Ölənlər və yaralananlar arasında Narin Teymur qızı Xalıqova kimi körpələrin olması isə onun qəddarlığının, insanlığa sığmayan əməllərinin göstəricisi idi.

Ermənistanın öz ərazisindən Azərbaycan şəhərlərini raket atəşinə tutmasının arxasında isə əsasən məkrli niyyət dayanırdı. İşğalçı dövlət bununla Azərbaycanı eyni tərzdə cavab verməyə təhrik etmək, münaqişənin coğrafiyasını genişləndirmək, beləliklə, münaqişəyə üçüncü ölkələri cəlb etmək məqsədi güdürdü. Düşmən bütün bunlarla bərabər xalqımızı qorxutmaq, mübarizə əzmini qırmaq istəyini ifadə edirdi. Amma yanılırdı, unudurdu ki, Prezident, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə müzəffər Ordumuzun şücaəti və xalqımızın dəstəyi ilə tezliklə tarixi torpaqlarımızdan qovulub çıxarılacaq, terroru dövlət siyasəti səviyyəsində həyata keçirən, vətəndaşlarımıza qarşı soyqırımlar törədən, nahaq qanlar tökən qatilə layiqli cavab veriləcək.

Müzəffər Ali Baş Komandan, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 27-də Anım Günü ilə əlaqədar xalqa müraciətində də erməni faşizminin bu fitnəkarlığını xatırladaraq deyib: “Ermənistan döyüş meydanında məğlub olarkən yenə də ən çirkin əməllərə əl atdı, mülki şəxslərə qarşı hərbi təxribat törətdi. Yüzdən çox mülki şəxs erməni faşizminin qurbanı oldu. Bizim şəhər və kəndlərimiz müntəzəm olaraq daim atəş altında idi. Ermənistan qadağan olunmuş silahlardan istifadə edirdi, ağ fosforlu bombalardan istifadə edirdi, ballistik raketlərdən istifadə edirdi. Ancaq heç nə bizi dayandıra bilməzdi. Azərbaycan xalqı əzm, iradə, cəsarət göstərərək bütün bu təxribatlara sinə gərdi. Bizi heç kim və heç nə dayandıra bilməzdi. Müharibə dövründə dəfələrlə Azərbaycan xalqına müraciət edərək deyirdim ki, heç kim və heç nə bizi dayandırmayacaq. Biz ədalət savaşına çıxmışıq. Biz ləyaqət savaşına çıxmışıq. Biz milli qürur savaşına çıxmışıq. Biz müqəddəs savaşa çıxmışıq”.

Dövlətimizin başçısı müraciətində daha sonra xalqımızın Vətən müharibəsi dövründə bir şüarla yaşadığını, “öldü var, döndü yoxdur”, – deyərək möhtəşəm qələbəyədək qəsbkarla savaş apardığını bildirib. Ölkə rəhbəri 44 gün ərzində hər bir vətəndaşın Azərbaycan Ordusunun arxasında möhkəm dayanaraq Silahlı Qüvvələrimizə əlavə güc verdiyini, eyni zamanda, həmin dövrdə düşmənin təxribatları nəticəsində çoxsaylı ölüm faktlarının olmasının, günahsız insanların qətlə yetirilməsinin, şəhər və kəndlərimizin dağıdılmasının da Azərbaycan xalqının iradəsini qıra bilmədiyini xatırladıb.

Bu, təsadüfi deyildi. Çünki Azərbaycanda güclü xalq-iqtidar birliyi var idi, insanlarda Vətən sevgisi, düşmənə nifrət hissi var idi. Belə bir ovqatda yeganə məqsəd-məram 30 il ərzində işğalda saxlanılan torpaqlarımızı azad etmək, yağıdan təmizləmək qarşıda önəmli vəzifə kimi qoyulmuşdu. Bu yoldan Azərbaycan Ordusunu heç vəchlə çəkindirmək mümkün deyildi. Faşizmdən xilas edilən şəhər və kəndlərimizdə, strateji yüksəkliklərdə Silahlı Qüvvələrimizin apardığı döyüşlərdə əsgər və zabitlərimizin göstərdiyi şücaət, qəhrəmanlıq, mübarizə əzmi bunun parlaq nümunəsi idi.

Bu məqamda Prezident İlham Əliyevin sentyabrın 27-də Anım Günü ilə əlaqədar xalqa müraciətində dediyi sözləri də xatırlamamaq mümkün deyil: “Biz hər gün irəli gedirdik, hər gün qələbə qazanırdıq, hər gün yeni uğurlar haqqında məlumatlar daxil olurdu. 44 gün ərzində bir gün də olmayıb ki, biz geriyə addım ataq. Ancaq mənfur düşmən, – baxmayaraq ki, onların əlində əlverişli mövqelər var idi, ərazinin relyefi onlara böyük üstünlük təşkil edirdi, baxmayaraq ki, 30 il ərzində 5-6 xətdən ibarət müdafiə istehkamları qurulmuşdu, – geri getməyə məcbur olmuşdur. 44 günlük müharibə zamanı Azərbaycan Silahlı Qüvvələrində bir nəfər də olsun fərari olmamışdır. Ancaq Ermənistan ordusunda 10 mindən çox fərari olmuşdur. Biz şəhidlərimizlə, qazilərimizlə fəxr edirik, eyni zamanda, Vətən müharibəsində qəhrəmanlıq göstərmiş hərbçilərimizlə, əsgər-zabitlərimizlə fəxr edirik. Onların qəhrəmanlığı, onların fədakarlığı heç vaxt unudulmayacaq. Biz bütün dünyaya göstərdik ki, Azərbaycan xalqı böyük xalqdır, Azərbaycan xalqı bu ədalətsizliklə heç vaxt barışmaq fikrində deyildi”.



Dövlətimizin başçısının Anım Günü ilə əlaqədar xalqa müraciətində diqqətçəkən bir məqamı da qeyd etmək istərdik. Prezident İlham Əliyev çıxışında Azərbaycan xalqının 44 gün ərzində öz ərazi bütövlüyünü bərpa etməklə, düşməni torpağımızdan qovmaqla, milli ləyaqətimizi qaytarmaqla bərabər, həm də erməni faşizminin başını əzdiyini vurğulayıb. Ölkə rəhbəri daha sonra deyib: “Bu gün azad edilmiş torpaqlara gələn hər bir insan erməni vəhşiliyinin təzahürlərini öz gözləri ilə görür. Bizim bütün şəhərlərimiz yerlə-yeksan edilib, bütün tarixi abidələrimiz, məscidlərimiz ermənilər tərəfindən ya tam dağıdılıb, ya da təhqir olunub. 67 məsciddən 65-i tamamilə dağıdılıb, qalan yarıdağılmış məscidlərdə mənfur düşmən bizi təhqir etmək üçün, bütün dünya müsəlmanlarını təhqir etmək üçün heyvan saxlayırdı, inək, donuz saxlayırdı. Mən əminəm ki, dünya müsəlmanları buna adekvat reaksiya verəcəklər. Mən bir çox müsəlman ölkələrindən bu məsələ ilə bağlı məktublar alıram. Biz işğal dövründəki erməni vəhşiliyi ilə bağlı, erməni faşizmi ilə bağlı əməli işlər aparırıq, bütün dünyanı məlumatlandırırıq və məlumatlandıracağıq. Ona görə də bizim Qələbəmiz qeyd etdiyim kimi, erməni faşizmi üzərində əldə edilmiş Qələbədir”.

Bəli, Ermənistan silahlı qüvvələri tərəfindən 30 ilə yaxın müddətdə işğal altında saxlanılan Qarabağ bölgəsi və ətraf rayonlarda ən çox dağıdılan mədəni irs nümunələri sırasında İslam dini abidələri – məscidlər, türbələr və digər inanc yerləri daha çox diqqət çəkir. Xüsusi əhəmiyyətə malik unikal abidələrə düşmənin bu cür barbar münasibəti dünya irsinə qarşı yönələn təhdiddir.

Rəsmi məlumata əsasən, işğal edilmiş ərazilərimizdə tarixi-dini abidələrin ümumi sayı 403-dür. Onlardan 67-si məscid, 144-ü məbəd, 192-si isə ziyarətgahdır. Qəbiristanlıqların sayı isə 900-dən artıqdır.

Yeri gəlmişkən, bir müddət bundan əvvəl Mədəniyyət Nazirliyi işğaldan azad olunan rayonlarda monitorinq aparıb və baxış keçirilən 49 obyektdən 28-nin işğalçılar tərəfindən tamamilə dağıdıldığı və yalnız qalıqlarının qaldığı aşkar edilib.

Ekspertlər bildirirlər ki, indiyədək dünyada müharibə və ya qeyri-müharibə şəraitində dini abidələrin təhqir olunmasına, məqsədli şəkildə dağıdılmasına nadir hallarda rast gəlinib və bu cür erməni barbarlığı artıq bütün dünyada ciddi əks-səda doğurub.

Bütün bunlar onu göstərir ki, Ermənistan xristianlığın dəyərlərini də qorumur. Belə ki, xristian dini dəyərlərində başqalarının məbədlərinə, müqəddəs məkanlarına qarşı vandalizm heç vaxt müsbət qarşılanmır. Ümumiyyətlə, düşmənin müqəddəs yerlərə qarşı bu cür çirkin hərəkətləri nə dinə, nə də insanlığa sığır.

Erməni vandallarının xarabazara çevirdikləri əzəli-əbədi yurdlarımızın bərpası, inkişaf axarına qovuşması, sosial-iqtisadi dirçəlişi indi dövlətimizin qarşısında duran ən mühüm vəzifədir. Dövlətimizin başçısı hər zaman bütün məsələlərdə olduğu kimi, bu istiqamətdə də aydın planlara, strateji hədəflərə malikdir. Hazırda Qarabağda və Şərqi Zəngəzurda bərpa-quruculuq işlərinin yüksək sürətlə və keyfiyyətlə aparılması da bunun parlaq ifadəsidir.

*Vaqif BAYRAMOV,*
*“Xalq qəzeti”*